# İnkişafın Naxçıvan modeli :
# blokadadan möhtəşəm tərəqqiyə doğru

## Qazanılmış uğurların təməlində möhtəşəm inkişaf strategiyası dayanmaqdadır

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: "Naxçıvan blokada şəraitində yaşayır. Ancaq naxçıvanlılar bu blokadanı hiss etmirlər. Çünki həm Naxçıvanın rəhbərliyi çox böyük işlər görür, həm də Azərbaycan dövləti hər zaman olduğu kimi Naxçıvana böyük diqqət göstərir".**

Blokada şəraitində yaşayan, bu səbəbdən də Azərbaycanın digər ərazilərindən təcrid olunan Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafına göstərilən diqqət və qayğının əsası müstəqil Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1990-cı ilin keşməkeşli iyul günlərində doğma vətəninə qayıdaraq xalqa nicat və qurtuluş yolunu göstərən ulu öndər Naxçıvanda Azərbaycan xalqının müstəqilliyi və firavanlığı naminə yorulmadan çalışırdı. Həmin vaxtlar ölkəmizin xüsusilə ağır iqtisadi vəziyyətə düşmüş regionu olan Naxçıvan Muxtar Respublikasında naxçıvanlılarla birgə çətin şəraitdə yaşayan, xalqın təkidli tələbi ilə 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Heydər Əliyevin apardığı gərgin işlər sayəsində bölgəni bu ağır vəziyyətdən qurtarmaq mümkün oldu. Onun rəhbərliyi ilə həyata keçirilən antiböhran tədbirlərinin

əsas istiqamətlərini siyasi sabitlik, iqtisadi potensialdan səmərəli istifadə yollarının tapılması, xarici ticarət və əməkdaşlıq əlaqələrinin gücləndirilməsi təşkil edirdi.

1992-ci ilin oktyabr ayında Araz çayı üzərində Naxçıvanla Türkiyəni birləşdirən Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi, Türkiyədən və İrandan yeni elektrik verilişi xətləri çəkilərək elektrik enerjisinin idxalına başlanılması, burda İran və Türkiyə ilə birgə müəssisələrin yaradılması, İran ərazisindən tranzit keçid üçün Arazboyu avtomobil yolunun inşası, muxtar respublikada yığılıb qalmış bir sıra məhsulların Türkiyəyə satılması üzrə müqavilələrin bağlanması məhz ümummilli lider Heydər Əliyevin şəxsi nüfuzu sayəsində əldə edilmiş böyük uğurlar idi.

Blokadanın doğurduğu ilkin və ən böyük təhlükə qismində ərzaq çatışmazlığı problemlərinin həlli və məşğulluğun səmərəli təşkili məqsədilə aqrar islahatlara ilk dəfə məhz həmin dövrdə başlanıldı. Ümumilikdə isə həmin illərdə Naxçıvanda başlanılmış çoxşaxəli islahatların sonrakı illərdə də strateji istiqamət qismində saxlanılması, Heydər Əliyev ideyalarına dönmədən əməl olunması hazırkı uğurlarımızı şərtləndirən başlıca amildir.

Ötən 17 il ərzində Naxçıvan Muxtar Respublikasında reallaşdırılan sosial-iqtisadi islahatların ilkin hədəfi də məhz blokada şəraitinin doğurduğu çətinliklərin aradan qaldırılmasına, alternativ yollarla bu problemin kompensasiya olunmasına yönəlmişdir. İqtisadi və nəqliyyat əlaqələrinin məhdud olduğu şəraitdə yüksək iqtisadi fəallığa nail olunmasını, istehsal potensialının hərəkətə gətirilməsini, davamlı quruculuq işlərini, sosial problemlərin səmərəli həllini və ən əsası əhalinin güzəranının layiqincə yaxşılaşdırılmasını, demək olar ki, hər bir naxçıvanlının qayğısını çəkmək bacarığını yalnız sadə formada tərəqqi və inkişaf yolu adlandırmaq doğru olmazdı. Bu yol Vətən və dövlət

sevgisindən doğan, gərgin əmək və misilsiz əzmkarlığın təcəssümü olan əsl qəhrəmanlıq səlnaməsi kimi yaddaşlara həkk olunmuşdur.

1996-cı ildən ötən dövrdəki məqsədyönlü fəaliyyət nəticəsində, ilk növbədə muxtar respublikamızın hərtərəfli tərəqqisində mühüm amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılmışdır. Bütün iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət muxtar respublikamızda tarazlı və davamlı inkişaf üçün başlıca amil olmuş, şəhər və rayonlarımızda canlanma yaranmış, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılmış, yeni təsərrüfat subyektlərinin fəaliyyəti sayəsində işsizliyin səviyyəsi xeyli dərəcədə azalmışdır. Muxtar respublikamızın mərkəzində olduğu kimi, rayonlarımızda, hətta ən ucqar kəndlərimizdə belə nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi sosial-iqtisadi və mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaratmışdır. Muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əmək məşğulluğunun artırılmasına və ümumilikdə muxtar respublika iqtisadiyyatının dinamik inkişafına nail olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi alternativsiz strategiyaya əsaslanan və ölkə Prezidenti cənab İlham Əliyevin dövrün tələbləri nəzərə alınmaqla daim təkmilləşdirdiyi inkişaf siyasətinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının modernləşmə xətti artıq keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycan

Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin muxtar respublikamıza etdiyi 10 ardıcıl səfər ərəfəsində söylədiyi fikirlərin və dərin məzmunlu nitqlərin ortaq və oxşar bir tərəfi ölkə rəhbərinin blokadada olan bir inzibati ərazidə möhtəşəm quruculuğa şahid olmaqdan duyduğu məmnunluğu və qürur hissini, bu sahədə muxtar respublika rəhbərliyinin gərgin əməyini və bu inkişafa ölkə başçısı kimi verəcəyi davamlı dəstəyi qeyd etməsidir.

Ölkə başçısı budəfəki səfərində də muxtar respublikada formalaşdırılmış dinamik iqtisadi yüksəlişi və genişmiqyaslı quruculuğu yüksək qiymətləndirməklə yanaşı, məhdud iqtisadi imkanlar çərçivəsində bu tərəqqiyə nail olmağın sirrini də açıqladı: **"Burada hər bir sahədə gözəl inkişaf vardır... Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bu işlər onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar. Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar. Mən çox şadam ki, naxçıvanlıların Vətənə bağlılığı həmişə olduğu kimi, çox yüksək səviyyədədir".**

## İnkişafın müqayisəli xarakteristikası iqtisadi siyasətin düzgünlüyünü təsdiqləməkdədir

Naxçıvan Muxtar Respublikasında ötən dövr ərzində reallaşdırılmış iqtisadi və sosial təmayüllü islahatlar nəticəsində qısa zaman ərzində makroiqtisadi sabitlik təmin olunmuş, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Geniş ictimai rəydə "Naxçıvan möcüzəsi" adlandırılan, iqtisadi inkişafın Naxçıvan modeli haqda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri belə xarakteristika verir: **"Yol düzgün seçiləndə, milli**

**maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".**

İqtisadi inkişaf, sosial həyat standartları və insanların yaşayış səviyyəsi üzrə müşahidə olunan sürətli müsbət dəyişikliklərin müqayisəli xarakteristikası keçilən yolun möhtəşəm və əzəmətli olduğunu aydın şəkildə ifadə etməkdədir.

**İqtisadi inkişaf və əhali rifahı üzrə qısa müqayisəli xarakteristika**

- 1996-cı ilin yekunu üzrə inflyasiya səviyyəsi 19,9 faiz təşkil edirdi
- Hazırda 0,2 faiz həddində deflyasiya (ucuzlaşma) müşahidə olunmaqdadır
- 1996-cı ildə 60 milyon 421 min manat həcmində Ümumi Daxili Məhsul yaradıldı ki, bu da bir il öncəki göstəricini 4,2 faiz üstələmişdir
- 2011-ci il ərzində yaradılmış Ümumi Daxili Məhsulun həcmi 1 milyard 786 milyon manat olmaqla bir il öncəyə nisbətdə 49,5 faiz çox olmuşdur
- Əhalinin hər bir nəfərinə düşən Ümumi Daxili Məhsulun həcmi 1996-cı ildə 178 manat həcmində idi
- Ötən ilin yekunlarına əsasən muxtar respublikada Ümumi Daxili Məhsulun hər bir nəfərə düşən həcmi 4312 manat təşkil etdi
- 1996-cı ildə muxtar respublikada 56 sənaye müəssisəsi fəaliyyət göstərib
- Ötən il fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 429 olmuşdur
- 1996-cı ildə sənaye sahəsində 2080 nəfər işçi çalışıb
- Ötən il muxtar respublikada sənaye sahəsində 14454 nəfər işçi məşğul idi
- 1996-cı ildə 9 milyon 714 min manat həcmində sənaye məhsulu istehsal edilmişdir
- 2011-ci ildə 681 milyon manata yaxın həcmdə sənaye məhsulu istehsal olundu
- 1996-cı ildə əsas kapitalın yaradılması üçün 5 milyon 788 min manat investisiyadan istifadə olunmuşdur
- 2011-ci ildə əsas kapitalın yaradılmasına 815 milyon manatdan çox vəsait sərf olundu
- 1996-cı ildə müxtəlif təyinatlı 59 obyekt inşa olunub
- Ötən il inşa olunan obyektlərin sayı 539-a bərabər olub

- 1996-cı ilədək olan 17 il ərzində 390 kilometr uzunluğunda avtomobil yolu inşa olunub
- 1996-cı ildən ötən 17 il ərzində 3264 kilometr uzunluğunda avtomobil yolu inşa olunub
- 1996-cı ildə tikinti sahəsində 4796 nəfər işçi çalışıb
- Ötən il muxtar respublikada tikinti sahəsində 11584 nəfər işçi məşğul idi
- 1996-cı ildə taxıl istehsalı 22 min 116 ton olmuşdur
- Ötən il taxıl istehsalının həcmi 101 min tondan çox oldu
- 1996-cı ildə ət istehsalının həcmi (diri çəkidə) 7 min 357 ton olmuşdur
- Ötən il ət istehsalının həcmi (diri çəkidə) 18 min 244 ton təşkil etmişdir
- 1996-cı ildə xarici ticarət balansı üzrə 13 milyon 610 min ABŞ dolları həcmində kəsr mövcud idi
- Ötən ilin yekununa əsasən xarici ticarət dövriyyəsi üzrə 244 milyon 364 min ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.
- 1996-cı ildə muxtar respublikada bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 15,9 manat səviyyəsində idi
- 2011-ci ildə muxtar respublikada bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 341,4 manat olmuşdur
- 1996-cı il ərzində əhalinin şəxsi vəsaiti hesabına alınmış yeni avtomobillərin sayı 180 ədəd olmuşdur
- Ötən il sakinlərimiz 2405 ədəd yeni avtomobil almışdır
- 1996-cı il ərzində əhalinin şəxsi vəsaiti hesabına 9,3 min kvadratmetr yaşayış sahəsi tikilmişdir
- 2011-ci ildə əhalinin şəxsi vəsaiti hesabına 339,5 min kvadratmetr yaşayış sahəsi inşa olunmuşdur
- 1996-cı ildə ailələrin 0,4 faizində kompyuterdən istifadə edilirdi
- 2011-ci ildə ailələrin 94,9 faizi kompyuterdən istifadə edib
- 1996-cı ildə ailələrin 0,9 faizi fərdi istilik sistemindən istifadə edib
- 2011-ci ildə ailələrin 64 faizi fərdi istilik sisteminə malik olub
- 1996-cı ildə 1 yaşa qədər ölən uşaqların sayı 173 nəfər olmuşdur
- 2011-ci ildə 1 yaşa qədər ölən uşaqların sayı 10 nəfər olmuşdur

## Makroiqtisadi sabitlik və davamlı inkişaf iqtisadi həyatın əsas xarakteristikasıdır

Ötən 17 il ərzində iqtisadi resurslara çıxış imkanlarının məhdud olduğu bir şəraitdə makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin

olunması iqtisadi həyatımızın əsas xarakterik xüsusiyyəti və böyük uğurumuzdur.

İqtisadi inkişafın əsas ölçüsü hesab olunan Ümumi Daxili Məhsul istehsalının həcmi cari ilin yanvar-may aylarında 663 milyon 19 min manata çatmaqla 1996-cı ilin müvafiq dövründəki göstəricini 22 dəfə üstələmişdir.

2012-ci ilin yanvar-may aylarında hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 1996-cı ilin müvafiq dövrünə nisbətən 18 dəfə artaraq 1577,5 manat (2006,5 ABŞ dolları) səviyyəsində olmuşdur.

1996-cı ilin müvafiq dövrü ilə müqayisədə 2012-ci ilin yanvar-may ayları ərzində sənaye məhsulunun həcmi 80 dəfə, əsas kapitala yönəldilən investisiyalar 154 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 2 dəfə, nəqliyyat sektorunda yük daşınması 18 dəfə, informasiya və rabitə xidmətləri 48 dəfə, pərakəndə əmtəə dövriyyəsi 15 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 18 dəfə, ixracın həcmi 97 dəfə, icmal büdcənin həcmi 44 dəfə, əhalinin gəlirləri 26 dəfə, hər bir nəfərə düşən gəlirlər 21 dəfə, orta aylıq əməkhaqqı isə 27 dəfə artmışdır.

Bu dövr ərzində ənənəvi qaydada aqrar sektorun üstünlük təşkil etdiyi iqtisadiyyatın qurulması ən əsas seçim sayıla bilərdi. Lakin müasir açıq rəqabət fonunda sənaye iqtisadiyyatına aparıcı mövqe qazandırmaq cəhdləri və bu sahədə artıq ciddi uğurların təmin olunması iqtisadi islahatların effektivliyini təsdiqləməkdədir. Artıq muxtar respublikada il ərzində istehsal olunan sənaye məhsulunun həcmi kənd təsərrüfatı məhsulunun həcmini orta hesabla 2 dəfədən çox üstələyir. Hazırda istehsal olunan Ümumi Daxili Məhsulun sahə strukturunda ilk yeri sənaye sahəsi, ikinci yeri isə tikinti sektoru tutmaqdadır.

## Ümumi Daxili Məhsulun sahə strukturu

| 1996-cı ilin yanvar-may ayları | 2012-ci ilin yanvar-may ayları |
|---|---|
| 1-ci yer - kənd təsərrüfatı sahəsi - 54,3 faiz | 1-ci yer - sənaye sahəsi - 32,9 faiz |
| 2-ci yer - topdan və pərakəndə ticarət - 26,6 faiz | 2-ci yer - tikinti sahəsi - 24,6 faiz |

Həyata keçirilən səmərəli iqtisadi siyasətin nəticəsidir ki, cari ilin ötən beş ayı üzrə makroiqtisadi göstəricilərin 1996-cı ilin analoji dövründəki göstəricilərlə müqayisəsi üzrə sürətli inkişaf meylləri müşahidə olunmaqdadır.

## Makroiqtisadi göstəricilər

| Müqayisə predmeti | 2012-ci ilin yanvar-may aylarında (min manat) | 1996-cı ilin yanvar-may ayları (min manat) | 2012-ci ilin yanvar-may ayları 1996-cı ilin yanvar-may aylarına nisbətən |
|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 663018,5 | 29955,3 | 22,1 dəfə |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manatla | 1577,5 | 88,1 | 17,9 dəfə |
| Sənaye məhsulunun ümumi həcmi | 322204,4 | 4047,6 | 79,6 dəfə |
| Əsas kapitala yönəldilən investisiyalar | 370457,9 | 2411,6 | 153,6 dəfə |
| Kənd təsərrüfatının ümumi məhsulu | 35828,2 | 17695,3 | 2 dəfə |
| Nəqliyyat sektorunda yük daşınması, min tonla | 4729,2 | 269,8 | 17,5 dəfə |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 17200,9 | 358,2 | 48 dəfə |
| Pərakəndə əmtəə dövriyyəsi | 290460,7 | 19178,7 | 15,1 dəfə |
| Əhaliyə göstərilən pullu xidmətlər | 46890,3 | 2650,3 | 17,7 dəfə |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 126419,1 | 9903,5 | 12,8 dəfə |
| o cümlədən ixracın ümumi həcmi | 97596,8 | 1008,9 | 96,7 dəfə |
| İcmal büdcənin həcmi | 222994,2 | 5024,7 | 44,4 dəfə |
| Əhalinin gəlirləri | 558340,7 | 21328,2 | 26,2 dəfə |
| Hər bir nəfərə düşən gəlirlər, manatla | 1328,4 | 62,7 | 21,2 dəfə |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manatla | 357,9 | 13,4 | 26,7 dəfə |

## Son 17 il ərzində 375 yeni sənaye müəssisəsi işə başlayıb

Sovetlər Birliyi dönəmində sənaye istehsal potensialının yaradılması və yerləşdirilməsi prosesi üzrə iqtisadi deyil, siyasi motivlər əsas götürülmüş, istehsalın ilk rentabellik prinsipi sayılan - "istehsal infrastrukturunun xammal mənbəyinə maksimal yaxınlığı" zərurəti destruksiya olunmaqla perspektivdə müttəfiq respublikaların vahid məkandan asılılığı daha da gücləndirilmişdir.

İttifaqın süqutu ilə əlaqədar olaraq istehsal və mübadilə əlaqələrinin kəskin qırılması sonradan blokada şəraitinin gətirdiyi çətinliklərlə daha da dərinləşmiş və Naxçıvanda sənayenin ağır dövrü başlanmışdır. Uzun illərin kooperasiya əlaqələrinə uyğun olaraq strateji məhsul alıcılarının, satış bazarlarının itirilməsi və mövcud enerji problemləri səbəbindən işini dayandıran sənaye müəssisələri məhsul qıtlığı və işsizlik kimi neqativ iqtisadi-sosial gərginliklərə səbəb olmuşdur.

Bu sahədə proseslərin normallaşdırılması üçün ötən dövrdə sənaye sahəsinin aparıcı mövqedə olduğu müasir iqtisadiyyatın qurulması istiqamətində həyata keçirilən tədbirlər bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etməklə və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətə davamlı məhsul istehsal edən müəssisələrin, yeni iş yerlərinin yaradılmasına və nəticə etibarilə iqtisadi qüdrətin artırılmasına yönəldilmişdir.

Bu dövr ərzində blokada şəraitinin yaratdığı mənfi nəticələrin aradan qaldırılmasını, istehlak və istehsal prosesləri üzrə yerli tələbatın vaxtında və keyfiyyətli ödənilməsini, məşğulluq məsələlərinin səmərəli həll edilməsini, ümumilikdə isə sənayeləşmə xəttinin daha da

dərinləşdirilməsini təmin etmək məqsədilə yeni sənaye müəssisələrinin yaradılması işi uğurla icra olunmuşdur.

Son 17 il ərzində muxtar respublikada 375 yeni sənaye müəssisəsi işə başlamışdır. Əgər 1996-cı ilin sonuna muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 1 iyun 2012-ci ilədək olan dövr ərzində bu müəssisələrin sayı 8 dəfə artaraq 431-ə çatmışdır.

Uzun illər blokada şəraitində olması ilə əlaqədar fəaliyyətini dayandırmış sənaye müəssisələrinin 1996-cı ildən başlayaraq fəaliyyətinin bərpa edilməsi və yeni istehsal sahələrinin yaradılması, nəticə etibarı ilə əvvəllər istehsal olunmayan yeni sənaye məhsullarının istehsalının təşkilinə və ümumilikdə sənaye məhsulu istehsalının dinamik artımına səbəb olmuşdur. Yeni müəssisələr qurularkən əsas diqqət idxaldan asılılığın minimumlaşdırılmasına və yerli tələbatın səmərəli formada ödənilməsinə yönəldilmişdir.

**Sənaye məhsulu istehsalının dinamikası, min manatla**




Muxtar respublikada sənaye sahəsində əldə olunmuş dinamik inkişaf meyillərinin dayanıqlılığının təmin olunması üçün həyata keçirilən kompleks tədbirlərin mühüm bir istiqaməti bu sahədə səmərəli

kreditləşdirmə mexanizminin formalaşdırılmasından ibarətdir. Təkcə son 7 ildə sənaye sahəsində iqtisadi aktivliyi gücləndirmək üçün sahibkarlara 52 milyon 215 min manat həcmində güzəştli kreditlər verilmişdir. 2011-ci ildə bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə 5 milyon 667 min manat kredit verilmişdir ki, bu da 1996-cı ildəki müvafiq göstəricini 157,4 dəfə üstələyir.

Həyata keçirilən məşğulluq strategiyasının mühüm istiqamətlərindən biri məşğulluq səviyyəsinin artırılmasını stimullaşdıran institusional şəraitin daha da təkmilləşdirilməsindən ibarətdir. Bu istiqamətdə həyata keçirilən sistemli tədbirlər sənaye sahəsində yeni iş yerlərinin açılmasını xeyli sürətləndirmiş və son 17 il ərzində muxtar respublikada ümumilikdə bu sahədə 10854 yeni iş yeri yaradılmışdır.

**Sənaye sektorunda açılmış yeni iş yerləri**

| Müqayisə predmeti | 1996-2000-ci illərdə | 2001-2005-ci illərdə | 2006-2010-cu illərdə | 2011-ci ildən-1 iyun 2012-ci il tarixədək | **Cəmi** |
|---|---|---|---|---|---|
| Açılmış yeni iş yerlərinin sayı | 890 | 2930 | 6147 | 887 | **10854** |

Hazırda muxtar respublikanın sənaye müəssisələrində 14946 nəfər işçi çalışır ki, bu da 1996-cı ilin yanvar-may aylarındakı müvafiq göstəricini 7,2 dəfə üstələyir.

Muxtar respublikada orta aylıq əməkhaqqının yüksək olduğu iqtisadi fəaliyyət sahələrindən biri də sənaye sahəsidir. Hazırda sənaye sahəsində orta aylıq əməkhaqqının məbləği 334,3 manata çatmaqla 1996-cı ilin yanvar-may aylarındakı müvafiq göstəricini 27 dəfə üstələmişdir.

## 1996-cı ildə 525 milyon kilovat-saat elektrik enerjisi idxal olunmuşdursa, ötən il 311 milyon kilovat-saat elektrik enerjisi ixrac edilib

Uzun müddət ərzində enerji resurslarına çıxış imkanlarının məhdudluğu blokadanın yaratdığı ən kəskin problemlərdən biri kimi ümumi inkişafa ciddi mənfi təsir göstərməkdə idi. Ötən illər ərzində bu sahədə intensiv tədbirlər həyata keçirilmiş, infrastruktur müasir standartlar səviyyəsində yenilənmiş, davamlı olaraq yeni güclər yaradılmışdır ki, bu da son nəticədə enerji təhlükəsizliyimizin səmərəli qurulmasını şərtləndirmişdir. Əgər 1996-cı ilə kimi muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə mövcud idisə, aparılan məqsədyönlü islahatlar nəticəsində bu müəssisələrin sayı 5-ə çatdırılmışdır. Ötən dövr ərzində ümumi gücü 87 mVt olan Naxçıvan Modul Elektrik Stansiyası, ümumi gücü 22 mVt olan Biləv Su Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində 4,5 mVt gücündə Su Elektrik Stansiyası tikilmiş, ümumi gücü 60 mVt olan Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası yenidən qurulmuş, hazırda Şərur rayonunda 20,5 mVt gücündə Arpaçay, Ordubad rayonunda 36 mVt gücündə Ordubad Su Elektrik Stansiyalarının inşası davam etdirilməkdədir.

Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsi kimi 2011-ci il ərzində muxtar respublikada 730 milyon kvt saat elektrik enerjisi istehsal edilmişdir ki, bu da 1996-cı ildəki göstəricidən 7,6 dəfə çoxdur.

Enerji təhlükəsizliyi ilə bağlı görülən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada yaradılmış elektrik stansiyaları elektrik enerjisinə olan daxili tələbatı tam ödəməklə yanaşı elektrik enerjisinin ixracına imkan yaratmışdır. Bir sözlə bu gün muxtar respublikamız elektrik enerjisi idxal olunan regiondan elektrik enerjisi ixrac edən diyara çevrilmişdir.

Uzunmüddətli fasilədən sonra muxtar respublikada istehlakçılar, ən əsası isə əhali təsərrüfatları təbii qazla təmin olunmuşdur. 1 iyun 2012-ci il tarixə 79 min 351 əhali abonenti mavi yanacaqla təmin olunmuş, bütün mənzillərə pulsuz olaraq mətbəx sobaları və qaz sayğacları quraşdırılmışdır.

**Təbii qazla təminat haqqında**

| Müqayisə dövrü / Göstərici | 1 iyun 2012-ci il tarixə | 1 yanvar 1991-ci il tarixə | analoji nisbət |
|---|---|---|---|
| Əhali abonentlərin sayı, vahid | 79351 | 33084 | 2,4 dəfə |

## Son 17 il ərzində əsas kapitala 3 milyard 171 milyon manat həcmində investisiya yönəldilmişdir

Muxtar respublikanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlbi xüsusi rol oynamaqdadır. İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə investisiya mühitinin daha da yaxşılaşdırılması əsas vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir. Dövlət investisiyaları sahəsində ərazi prinsipi üzrə investisiyaların bölüşdürülməsinin optimallaşdırılması, investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi, insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyi təmin olunmuşdur. Özəl investisiyalar sahəsində siyasətə uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən müəssisələrin investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə tədbirlər davam etdirilməkdədir.

2012-ci ilin yanvar-may aylarında əsas kapitala yönəldilən investisiyaların həcmi 1996-cı ilin müvafiq dövründəki göstəricini 154 dəfə üstələyərək 370 milyon 458 min manata çatmışdır.

**Əsas kapitala yönəldilmiş investisiyanın dinamikası, min manatla**




1 yanvar 1996-cı ildən 1 iyun 2012-ci ilədək olan dövr ərzində muxtar respublikada 199 inzibati bina, mənzil təsərrüfatı üzrə 37 obyekt, 51 nasos stansiyası, 266 subartezian quyusu, 66 körpü, rabitə və informasiya texnologiyaları sahəsində 268 obyekt və qurğu, 48 xidmət və ticarət mərkəzi, 152 elm və təhsil müəssisəsi, 157 mədəniyyət müəssisəsi, 140 səhiyyə müəssisəsi, 21 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 452 fərdi ev, 497 istehsal və xidmət obyekti tikilərək istifadəyə verilmişdir. Bu dövr ərzində 235 halda inzibati binaların, mənzil təsərrüfatı üzrə 599 halda obyektlərin, 109 halda nasos stansiyalarının, 100 halda subartezian quyularının, 59 halda körpülərin, 9 xidmət və ticarət mərkəzinin, 94 halda elm və təhsil müəssisələrinin, 140 halda mədəniyyət müəssisələrinin, 47 halda səhiyyə müəssisələrinin, 15 halda idman obyektlərinin, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 21 halda fərdi evlərin yenidən qurulması və ya əsaslı təmiri aparılmışdır.

**Əsas kapitala yönəldilmiş investisiyalar haqqında, min manatla**

| Göstəricilər / Müqayisə dövrü | 2012-ci ilin yanvar-may ayları | 1996-cı ilin yanvar-may ayları | analoji nisbət |
|---|---|---|---|
| Əsas kapitala yönəldilmiş investisiyalar | 370457,9 | 2411,6 | 153,6 dəfə |
| Gün ərzində istifadə olunan investisiyanın orta həcmi | 2437,2 | 16,0 | 152,3 dəfə |

İdarəetmənin səmərəli təşkili və ucqar yaşayış məntəqələrinin, kəndlərin, qəsəbələrin inkişafı bu müddət ərzində diqqətdə saxlanılmış və son 17 il ərzində 67 kənd mərkəzi, 3 qəsəbə mərkəzi istifadəyə verilmişdir.

Blokada şəraitinin ilk dövrlərində, xüsusilə də enerji qıtlığının kəskinləşdiyi illərdə muxtar respublikada əhali məskunluğu üzrə problemlər özünü göstərməkdə idi. Elektrik enerjisinin verilişindəki fasilələr, təbii qaz təminatının tamamilə dayanması və yanacaq çatışmazlığı gündəlik həyat səviyyəsini həddindən artıq çətinləşdirmişdi. Həmin illər ərzində mövcud problemlərdən qaynaqlanmaqla mənzil şəraitinin yaxşılaşdırılması, yeni evlərin inşası və təmiri prosesinin səviyyəsi ən zəif həddə enmişdir.

Ötən dövr ərzində dayanıqlı əhali məskunluğunun təmin edilməsi üçün böyük əmək sərf olunmuş, bu prosesin normal məcraya yönəldilməsi məqsədilə kompleks tədbirlər reallaşdırılmış və bu sahədə ciddi dönüşə nail olunmuşdur. Hazırda əhalinin maddi-rifah halının yaxşılaşması fərdi yaşayış evlərinin tikintisi üzrə müsbət meyilli dinamikanı daha da gücləndirmişdir. 2012-ci ilin yanvar-may ayları ərzində muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına ümumilikdə 217 min kvadratmetr yaşayış sahəsi tikilmişdir ki, bu da 1996-cı ilin yanvar-may ayları ilə müqayisədə 56 dəfə çoxdur.

**Əhalinin şəxsi vəsaiti hesabına tikilmiş yaşayış sahələri haqqında**

| Müqayisə dövrü / Göstərici | 2012-ci ilin yanvar-may ayları | 1996-cı ilin yanvar-may ayları | analoji nisbət |
|---|---|---|---|
| Yaşayış tikililərinin sahəsi, min kvadratmetr | 216,9 | 3,9 | 55,6 dəfə |

Əhalinin rahatlığına və yaşayış səviyyəsinin yüksəlməsinə xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin tərkib hissəsi kimi içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması işi xüsusilə diqqətdə saxlanılmaqdadır. Ötən dövr ərzində muxtar respublikada mövcud olan kaptajlar, içməli su xətləri bərpa olunmuş, yeni kaptajlar tikilmiş və içməli su xətləri çəkilmişdir. Bu işlərin davamı qismində hazırda muxtar respublikanın mərkəzi Naxçıvan şəhərinin, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının mərkəzləri və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin tikintisi üzrə işlər davam etdirilməkdədir.

## Son 17 ildə hərbi quruculuq üzrə 164 obyekt inşa olunub

Muxtar respublikanın müdafiə qabiliyyətinin və ordunun maddi-texniki bazasının daha da gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Cari ilin 30 may tarixində muxtar respublikaya səfərə gələn ölkə başçısı cənab İlham Əliyev bu sahədəki ciddi irəliləyişləri yüksək qiymətləndirərək belə qeyd etmişdir: **“Bu gün hərbi hissədə olarkən Naxçıvanın potensialının nə qədər böyük olduğunu bir daha görmək olar. Son illər ərzində çoxlu silah-sursat, texnika gətirilmişdir. Hava hücumuna qarşı qurğular yerləşdirilmişdir. Müasir artilleriya qurğuları gətirilmişdir. Tanklar, zirehli maşınlar,**

**helikopterlər, yəni Naxçıvanın döyüş qabiliyyəti, döyüş potensialı çox yüksək səviyyədədir".**

Ötən 17 il ərzində muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində 164 obyekt, o cümlədən 16 qərargah binası, səfərbərlik və hərbi xidmətə çağırış, hərbi prokurorluq orqanları və hərbi hissələrin bölük mərkəzləri üçün 13 bina, 27 zabit və əsgər yataqxanası, 20 yeməkxana, 19 yaşayış binası, 4 tədris binası, 1 orta məktəb, 2 uşaq bağçası, 4 xəstəxana, 6 tibb məntəqəsi, 3 klub və 49 müxtəlif təyinatlı obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

## Kənd təsərrüfatı məhsulları istehsalının ümumi həcmi son 17 ildə 7 dəfə artmışdır

İqtisadi və nəqliyyat əlaqələrinin kəskin məhdudlaşdığı ilk illərdə özünü daha da qabarıq şəkildə göstərən mühüm problem ərzaq qıtlığı oldu. Planlı iqtisadiyyatın çökməsinin, kolxoz və sovxoz infrastrukturunun dağılmasının ardınca işğalçı Ermənistan tərəfindən tətbiq olunan blokada rejimi ərzaq təminatı proseslərinə ikinci böyük zərbə olmaqla gərginliyi daha da artırmış oldu. Əgər ilk illərdə ərzağa olan tələbat qonşu Türkiyə və İrandan idxal, o cümlədən bir sıra yardımlar hesabına qarşılanırdısa, sonrakı illər ərzində səmərəli aqrar islahatlara uyğun olaraq aqrar potensialın hərəkətə gətirilməsi üçün kompleks tədbirlərə başlanıldı. Aqrar sektorda xüsusi mülkiyyətçiliyin önə çəkilməsi bu istiqamətdə əsas dönüş nöqtəsi idi.

Ötən dövr ərzində kompleks tədbirlər çərçivəsində yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə yardımlarının göstərilməsi, gübrələrin güzəştlə çatdırılması, meliorasiya-irriqasiya sistemlərinin yenilənməsi, səmərəli kreditləşdirmə

mexanizminin formalaşdırılması, bu sahədə lizinqin inkişafının dəstəklənməsi, kənd təsərrüfatı texnikalarının sayının tələbata uyğun artırılması, yeni satış bazarlarının təşviqi bu sahədə iqtisadi aktivliyi əhəmiyyətli dərəcədə intensivləşdirmişdir.

Bu müddət ərzində kənd təsərrüfatının davamlı inkişafına yönəldilmiş kompleks islahatlar üzrə mühüm qərarlar qəbul edilmiş, proqram xarakterli idarəetmə formalaşdırılmış, 2005-2010-cu illəri əhatə edən Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə, 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair və 2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramları qəbul olunmaqla konkret inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

Muxtar respublikada ərzaq balansının müsbət meylliliyini təmin etmək, idxaldan asılı olmayan dayanıqlı ərzaq təminatına nail olmaq üçün bitkiçiliyin inkişafı ötən dövr ərzində prioritet istiqamət kimi diqqətdə saxlanılmış, bu sahədə ciddi irəliləyişlər əldə olunmuşdur. Əkinə yararlı torpaqlar tam şəkildə əkin dövriyyəsinə qatılmaqla 2011-ci ilin məhsulu üçün 60 min 20 hektar sahədə əkin işləri həyata keçirilmişdir ki, bu da 1996-cı ilin məhsulu üçün əkilmiş sahədən 2,2 dəfə çoxdur.

**Cəmi əkin sahələri, hektarla**




Taxılçılığa mühüm əhəmiyyətli sahə kimi yanaşılması nəticəsində bu sahədə yüksək artım meyillərinə nail olunmuşdur. Ən əsası odur ki, əsas təbii ehtiyat sayılan torpaqların məhdud olması nəzərə alınır və bitkiçilik müasir aqrokimyəvi və aqrotexniki tədbirlərə əsaslanan intensiv metodlarla, yəni məhsuldarlığın yüksəldilməsi yolu ilə inkişaf etdirilir. Bunun nəticəsində 1996-cı ilə nisbətən 2011-ci ildə taxıl istehsalı 4,6 dəfə artmışdır.

**Taxıl əkini və məhsul istehsalının dinamikası**



Səmərəli maliyyə dəstəyi qismində kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə subsidiyaların, məhsuldarlığın artırılması üçün gübrələrin verilməsi bitkiçiliyin inkişafında xüsusi əhəmiyyətə malikdir.

2009-cu ildə tutumu 18 min ton taxılı uzunmüddətə, tutumu 20 min ton taxılı qısamüddətə saxlamağa imkan verən Naxçıvan Muxtar Respublikası Taxıl Ehtiyatı Anbarının istifadəyə verilməsi muxtar respublikada taxıl ehtiyatlarının yaradılmasında əsas rol oynamaqla istehsalçıların məhsul tədarükü zamanı rastlaşdıqları problemlərin aradan qaldırılmasında mühüm əhəmiyyətə malikdir. Son illər ərzində muxtar respublikada istehsal olunan buğdanın hər kiloqramının orta hesabla 30 qəpikdən mərkəzləşmiş qaydada satın alınması məhsul istehsalçılarının taxıl istehsalına və onun vaxtında itkisiz yığılmasına marağını daha da artırmışdır.

Yüksək istehlak xüsusiyyətləri nəzərə alınaraq muxtar respublikada kartof istehsalına xüsusi önəm verilir. Daxili bazarın kartofla təminatında idxaldan asılılığı azaltmaq, əhali tələbatının keyfiyyətli yerli məhsul hesabına ödənilməsini təmin etmək məqsədilə reallaşdırılan tədbirlərə uyğun olaraq kartof əkini üçün əlverişli torpaq sahələri müəyyənləşdirilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində 2011-ci ildə 2764 hektar sahədə kartof əkilmişdir. Ötən il bu sahələrdən 38309,6 ton məhsul yığılmışdır ki, bu da 1996-cı ildəki göstəricidən 6,4 dəfə çoxdur.

## Kartof əkini və istehsalının dinamikası




Artıq muxtar respublikada bitkiçilik məhsullarına olan tələbat əsas etibarı ilə yerli istehsal hesabına ödənilməkdədir. 2011-ci ildə muxtar respublikada 101028 ton taxıl, 65247 ton tərəvəz, 40193 ton bostan məhsulları, 54622,4 ton meyvə və giləmeyvə istehsal olunmuşdur ki, bu da 1996-cı ildə olan göstəriciləri müvafiq olaraq 4,6 dəfə, 2,4 dəfə, 10,9 dəfə, 10,1 faiz üstələmişdir.

Əsas strateji xəttə uyğun olaraq yerli tələbatın səmərəli ödənilməsi ilə yanaşı muxtar respulikada son illər ərzində yerli tələbatdan artıq səviyyədə istehsal olunan bir sıra meyvə və tərəvəz məhsullarının ixracı davamlı xarakter almışdır. Ötən il ərzində xarici ölkələrə və respublikamızın digər bölgələrinə 90 milyon 461 min ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Aqrar sektorda yüksək iqtisadi aktivliyi təmin edən amillərdən biri isə kənd təsərrüfatı üzrə maşın və mexanizmlərin sayının tələbata uyğun olaraq artırılmasından ibarətdir. Bu istiqamətdə həyata keçirilən tədbirlərə uyğun olaraq “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 137 ədədi 2012-ci ilin yanvar-may aylarında olmaqla cəmi 822 ədəd

müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir. 2012-ci ilin yanvar-may aylarında əvvəlki illərdə gətirilən texnikalarla birlikdə 138 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. Ümumilikdə 1996-cı ildən ötən dövr ərzində muxtar respublikaya 988 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilmişdir.

Aqrar sektorun inkişafında mühüm mərhələ kimi soyuducu anbarların yaradılması prosesi davam etdirilir. Bu dövr ərzində tutumu 9 min 720 ton olan 14 soyuducu anbar istifadəyə verilmiş, tutumu 2 min ton olan bir soyuducu anbar hazırda qurulmaqdadır.

Muxtar respublikada kənd təsərrüfatının əsas sahələrindən biri də heyvandarlıqdır. Əhalinin heyvandarlıq məhsulları ilə etibarlı təminatı üçün bu sahəyə xüsusi diqqət yetirilmiş, heyvanların baş sayında və heyvandarlıq məhsullarının istehsalında artıma nail olunmuşdur.

Heyvandarlığın inkişaf etdirilməsi, daxili bazarda heyvandarlıq məhsullarına olan tələbatın tam ödənilməsi və bu sahədə ixracın təşviqi diqqət mərkəzində saxlanılır. Bu strateji məqsədlərə çatmaqda isə şübhəsiz ki, təkmilləşdirilmiş baytarlıq xidməti mühüm rol oynayır. Baytarlıq tədbirləri üzrə biopreparatların, dərman vasitələrinin, müasir tipli cihaz və avadanlıqların, məhsuldar cinsdən olan mal-qaranın və süni mayalandırma avadanlıqlarının alınaraq muxtar respublikaya gətirilməsi və intensiv istifadəsi artıq davamlı xarakter almışdır.

Heyvandarlıqda baş sayının dinamik artımı öz növbəsində əsas heyvandarlıq məhsullarının ciddi artımına zəmin yaratmışdır.

**Heyvandarlıq məhsulları istehsalı, tonla**

| Məhsulların adı \ Müqayisə dövrü | 2011-ci il | 1996-cı il | analoji nisbət |
|---|---|---|---|
| Ət (kəsilmiş çəkidə) | 9961,0 | 4017,0 | 2,5 dəfə |
| Süd | 77119,6 | 34293,0 | 2,2 dəfə |
| Yumurta, min ədəd | 68229,5 | 39754,0 | 1,7 dəfə |
| Yun | 956,4 | 552,0 | 1,7 dəfə |

Yüksək tələbata uyğun olaraq kənd təsərrüfatının mühüm sahələrindən olan quşçuluq və balıqçılığın inkişafı müntəzəm olaraq dəstəklənmiş, 41 yeni quşçuluq və 11 balıqçılıq təsərrüfları istifadəyə verilmişdir.

Muxtar respublikada kənd təsərrüfatının perspektivli sahələrindən biri də arıçılıqdır. Bu sahənin inkişafı ilə əlaqədar son illər göstərilən dövlət maliyyə dəstəyinin həcmi artırılmış, balın emalı və qablaşdırılması ilə məşğul olan istehsal sahələri istifadəyə verilmişdir.

Kənd təsərrüfatının inkişaf etdirilməsi və bu sahədə sahibkarlığa dəstək məqsədilə təkcə ötən il muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən kənd təsərrüfatı müəssisələrinə və ayrı-ayrı fiziki şəxslərə ümumilikdə 15 milyon 897 min manatdan artıq həcmdə və yaxud 1996-cı illə müqayisədə 76 dəfə çox kredit verilmişdir.

**Kənd təsərrüfatı üzrə verilmiş kreditlər haqqında**

| Göstərici \ Müqayisə dövrü | 2011-ci il | 1996-cı il | analoji nisbət |
|---|---|---|---|
| Verilmiş kreditlərin məbləği, min manatla | 15897,5 | 210,5 | 75,5 dəfə |

Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq yerli tələbatın əsas etibarı ilə ödənilməsinə nail olunmuş, daxili bazarda məhsul bolluğu yaranmışdır. 2011-ci ildə muxtar respublikada 296 milyon 117 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 1996-cı ildəki müvafiq göstəricidən 7 dəfə çoxdur.




Torpaq sahələrinin meliorativ cəhətdən münbitləşdirilməsi və suvarma suyuna olan tələbatının səmərəli ödənilməsi üçün meliorasiya və irriqasiya sahəsində həyata keçirilən tədbirlərin miqyasını genişləndirmək əsas fəaliyyət istiqamətlərindən birini təşkil etməkdədir. Məhz bu baxımdan muxtar respublikamızda meliorasiya və irriqasiya sistemlərinin texniki imkanlarının genişləndirilməsi, müasir hidrotexniki qurğuların istifadə imkanlarının artırılması daim diqqət mərkəzində saxlanılır.

Ötən müddətdə su ehtiyatını artırmaq məqsədilə mövcud su anbarlarında təmir işləri aparılmış, yenilərinin tikilməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, Heydər Əliyev Su Anbarı istifadəyə verildikdən sonra Babək rayonunda 4364 hektar, Culfa rayonunda 2311 hektar, Şahbuz rayonunda 244 hektar, ümumilikdə isə 6919 hektar

yeni torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Su anbarı vasitəsilə suvarılan torpaqların sahəsi 16830 hektara çatmışdır.

## Son 17 ildə 10983 hektar sahədə yeni yaşıllıqlar salınmışdır

Enerji böhranının başlandığı, elektrik enerjisinin uzunmüddətli fasilələrlə verildiyi, təbii qaz nəqlinin dayandırıldığı, yanacağın çatışmadığı illərdə, xüsusilə də qış aylarında əhali təsərrüfatları ciddi çətinliklərlə üzləşmiş və bu səbəbdən də meşə massivlərindəki, yaşıllıq zolaqlarındakı çoxillik ağaclar kütləvi şəkildə kəsilərək istilik üçün istifadə olunmuşdur. İstilik enerjisinin alınmasında əsas xammal qismində odundan, kəsilmiş ağaclardan istifadə son nəticədə mövcud meşə massivlərinin, yolların və yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zolaqlarının demək olar ki, məhvinə gətirib çıxarmışdır.

Həmin dövr üçün qaçınılmaz olan bu proseslərin mənfi nəticələrinin aradan qaldırılması məqsədilə sonrakı illər ərzində ardıcıl tədbirlər görülmüş, keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində qısa zamanda min hektarlarla meşə örtüyü bərpa olunmuş, yeni meşə massivləri, yaşıllıq zolaqları və meyvə bağları salınmışdır.

Son 17 ildə muxtar respublika ərazisində təkcə dövlət strukturlarının dəstəyi ilə 10983 hektar sahədə yaşıllıqlar-meşə massivləri, meyvə bağları, yaşıllıq zolaqları salınmış, meşəbərpa işləri aparılmışdır.

Xüsusi mühafizə statuslu təbiət obyektlərinin yaradılması təbiət komplekslərinin, flora və fauna ehtiyatlarının qorunmasına, bərpasına, ekoloji balansın təmin edilməsinə müsbət təsir göstərmişdir. Muxtar respublikamızda təbiəti mühafizə tədbirlərinin əhatə dairəsi və ardıcıllığı fauna ehtiyatlarının artmasına müsbət təsir göstərmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair "Qırmızı

kitab"ların hazırlanması sayı azalmaqda olan növlərin qorunub saxlanılmasına və artırılmasına, xüsusi qaydada mühafizə edilməsinə geniş təminat yaratmışdır.

## Son 17 il ərzində 3264 kilometr uzunluğunda avtomobil yolları salınıb

Blokada şəraitinin yaratdığı ilkin və əsas çətinliklərindən biri Naxçıvan Muxtar Respublikasını ölkənin əsas hissəsi ilə birləşdirən dəmir yolunun işini dayandırması oldu. Bu istiqamətdə hərəkət edən qatarların hərəkətinin işğalçı Ermənistan tərəfindən dayandırılması yük və sərnişin daşınmasındakı ciddi çətinliklərlə yanaşı, bir sıra perspektiv planların dayandırılmasını və psixoloji gərginliyin daha da artmasını şərtləndirmiş oldu.

Məhz bu baxımdan nəqliyyat sisteminin ahəngdar işinin bərpası məqsədilə sonrakı illərdə ilk növbədə hava nəqliyyatının işinin gücləndirilməsi, qonşu xarici ölkələrin ərazisindən tranzit istifadə imkanlarının genişləndirilməsi istiqamətində irimiqyaslı layihələrin icrası bu istiqamətdə əhəmiyyətli dönüşə səbəb oldu. Ötən dövr ərzində blokada vəziyyəti ilə bağlı çətinlikləri aradan qaldırmaq və nəqliyyat infrastrukturunu müasirləşdirmək sahəsində əsaslı tədbirlərə uyğun olaraq Naxçıvan Beynəlxalq Hava Limanının, Sədərək, Culfa və Şahtaxtı sərhəd-keçid komplekslərinin, Culfa və Şahtaxtı Sərhəd Keçid Məntəqələrində yeni körpülərin istifadəyə verilməsi, "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus və yeni hava nəqliyyatı marşrutlarının açılması nəqliyyat əlaqələrinin genişlənməsində mühüm mərhələ olmuşdur.

Son 17 ildə muxtar respublikada 3264 kilometr uzunluğunda yeni avtomobil yolları salınmış və ya əsaslı təmir olunmuş, 5 yeni avtovağzal kompleksi inşa olunmuş, 66 körpü tikilmiş, 59 halda isə körpülər əsaslı təmir olunmuşdur. Digər tərəfdən bu müddət ərzində dəmiryolu

nəqliyyatının gələcək inkişaf perspektivləri nəzərə alınaraq infrastrukturu davamlı olaraq təkmilləşdirilmiş və muxtar respublika daxilində ahəngdar işi təmin edilmişdir. 1996-cı ilin yanvar-may ayları ilə müqayisədə cari ilin ötən dövrü ərzində yük daşınması 18 dəfə, sərnişin daşınması isə 3 dəfə artmışdır.

## İnformasiya cəmiyyətinə keçid sürətləndirilir

Keçmiş Sovetlər Birliyi dönəmində qurulmuş rabitə sistemi çərçivəsində muxtar respublikanın ölkəmizin digər bölgələri ilə rabitə əlaqəsini təmin edən rabitə xətləri Ermənistan üzərindən keçməkdə idi. Məhz bu üstün mövqedən istifadə edərək işğalçı Ermənistan mühüm bir blokada növü kimi Naxçıvanın informasiya blokadasına alınması məqsədilə müvafiq xətlərin və infrastrukturun dağıdılmasını həyata keçirdi.

Həmin dövrdə ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə muxtar respublikanın informasiya blokadasından çıxarılması üçün zəruri və təxirəsalınmaz tədbirlər görüldü, nəqliyyat əlaqələrinin bərpası prosesində olduğu kimi bu sahədə də qonşu xarici ölkələrin informasiya şəbəkələrinə çıxış imkanlarından səmərəli istifadə üzrə işlərə başlanıldı. Qısa dövr ərzində İran İslam Respublikasının və Türkiyə Respublikasının informasiya və rabitə resurslarından istifadə etməklə ölkənin digər bölgələri ilə rabitə əlaqəsi təmin olundu.

Ötən dövr ərzində bu sahədə zəruri infrastruktur tədbirləri reallaşdırılmış, avtomat telefon stansiyaları tamamilə elektronlaşdırılmış, inkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması istiqamətində mühüm tədbir sayılan optik kabel magistrallarının tikintisi həyata keçirilmiş və hazırda da bu iş davam etdirilməkdədir.

1996-cı ildən ötən dövr ərzində muxtar respublika ərazisində 4 mobil rabitə operatorunun fəaliyyətinin təşkil edilməsi, internet xidməti sahəsinin yaradılması, mövcud koordinat tipli avtomat telefon stansiyalarının hamısının elektron tipli avtomat telefon stansiyaları ilə əvəz edilməsi, İran və Türkiyə ərazilərindən keçməklə fiber optik kabellərinin çəkilişi, "Naxtel" simsiz telefon xidmətinin və Yeni Nəsil Telekommunikasiya şəbəkəsinin istifadəyə verilməsi, "Kanal-35" televiziyasının və "Naxçıvanın səsi" radiosunun fəaliyyətə başlaması, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin maddi-texniki bazasının gücləndirilməsi və efir vaxtının artırılması, Naxçıvan Dövlət Universitetində Universitet televiziyasının, "Nuhçıxan" radiosu üçün yeni studiyaların yaradılması, Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Kompyuter Təlim-Tədris və İnternet Mərkəzinin və onun rayon filiallarının səmərəli fəaliyyətinin təşkili, iqtisadiyyatın bütün sahələrində informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin uğurla davam etdirilməsi, bu sahə ilə əlaqədar çoxsaylı beynəlxalq simpoziumların və konfransların keçirilməsi muxtar respublikada informasiya və kommunikasiya texnologiyalarının iqtisadi və sosial həyatımıza sürətli inteqrasiyasını təmin etmişdir.

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ümumilikdə bu sahə üzrə göstərilən xidmətlərin həcminin dinamik artımına da zəmin yaratmışdır. Belə ki, 2012-ci ilin yanvar-may aylarında informasiya və rabitə xidmətlərinin həcmi 17 milyon 201 min manat olmuşdur ki, bu 1996-cı ilin müvafiq dövrü ilə müqayisədə 48 dəfə çoxdur.

## Sahibkarlığa Kömək Fondu tərəfindən ötən dövr ərzində 85 milyon manata yaxın həcmdə kredit verilmişdir

İnkişafın hərəkətverici qüvvəsi sayılan sahibkarlar sinfinin formalaşdırılması ötən dövr ərzində reallaşdırılan iqtisadi siyasətin başlıca istiqamətini təşkil etmişdir. Bu müddət ərzində özəl sektora dövlət dəstəyinin gücləndirilməsi nəticəsində ciddi nailiyyətlər əldə edilmiş, sahibkarların fəaliyyət istiqamətləri, iqtisadi və maliyyə resurslarına çıxış imkanları xeyli genişlənmişdir.

2000-ci ildən ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən 1058 layihənin maliyyələşdirilməsinə 84 milyon 812 min manat həcmində kredit verilmişdir.

Yerli istehsalın inkişafı strategiyasına uyğun olaraq hazırda muxtar respublikada 316 növdə məhsul istehsal olunmaqdadır. Bu məhsulların 114 növü ərzaq, 202 növü qeyri-ərzaq məhsullarıdır. 105 növdə ərzaq, 198 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə 303 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Özəl sektorun inkişafı üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq 2011-ci ildə muxtar respublikada ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 86,5 faiz təşkil etmişdir.

İqtisadi münasibətlərin, təsərrüfat əlaqələrinin dərinləşməsi bank işinin daha da güclənməsini şərtləndirmişdir. 1 iyun 2012-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 13879-a çatmışdır ki, bunun da 11255-i və ya 81,1 faizi aktiv hesablardır. Cari ilin ötən dövrü ərzində açılmış 1738 bank hesabının 1713-ü və ya 98,6 faizi aktiv hesab olmuşdur.

2011-ci ildə muxtar respublikanın bank strukturları və kredit təşkilatları tərəfindən sahibkarlara verilmiş kreditlərin həcmi 1996-cı illə müqayisədə 161 dəfə artaraq 47 milyon 229 min manat təşkil etmişdir.

## Son 17 ildə muxtar respublikada 70474 yeni iş yeri yaradılmışdır

Planlı iqtisadiyyat sistemində "əmək bazarı" anlayışı mövcud deyildi. Yeni iqtisadi sistemə keçidlə əlaqədar olaraq tələb və təklif münasibətlərinin fəaliyyət göstərdiyi əmək ehtiyatları bazarı meydana çıxdı. Lakin yeni iqtisadi sistemə keçidin ilk dövründə Naxçıvanın iqtisadi həyatına yönəldilmiş ağır blokada şəraiti normal rəqabət mühitinin, səmərəli iş təklifinin formalaşdırılmasına imkan verməmiş, iqtisadi və nəqliyyat əlaqələrinin qırılması, xammal və enerji çatışmazlığı ucbatından müəssisələrin fəaliyyətini dayandırması əmək bazarında kəskin işsizliyə səbəb olmuşdur.

Məşğulluq sahəsində bu gərginliyin aradan qaldırılması məqsədilə ötən 17 ilə yaxın dövr ərzində muxtar respublikada kompleks tədbirlər həyata keçirilmiş, yeni müəssisələr yaradılmış, səmərəli məşğulluq üçün mühüm layihələr reallaşdırılmış, özünüməşğulluğun intensivləşməsi dəstəklənmiş, yüksək əməkhaqqı tutumlu yeni iş yerlərinin açılması ciddi təşviq olunmuşdur ki, bu da son nəticədə əmək bazarında münasibətləri xeyli yaxşılaşdırmağa imkan yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı"nın ötən dövr ərzində uğurlu icrası məşğulluq məsələlərinin keyfiyyətcə yeni mərhələyə keçirilməsinə, işsizlik səviyyəsinin əsas etibarilə aradan qaldırılmasına yeni impulslar vermişdir.

Həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsində 1 yanvar 1996-cı ildən 1 iyun 2012-ci il tarixədək muxtar respublika üzrə ümumilikdə 70474 yeni iş yeri yaradılmışdır ki, bu iş yerlərinin 44178-i və ya 62,7 faizi daimi iş yeridir.

Aparılan məqsədyönlü iqtisadi siyasət muxtar respublikada əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmışdır. 2012-ci ilin yanvar-may aylarında muxtar respublikada bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 357,9 manat təşkil etməklə 1996-cı ilin yanvar-may aylarındakı göstəricini 27 dəfə üstələmişdir.

Əldə olunmuş uğurlu nəticələr ilk növbədə əhali gəlirlərinə öz müsbət təsirini göstərmişdir. Muxtar respublikada əhali gəlirləri 2012-ci ilin yanvar-may aylarında 558 milyon 341 min manat təşkil etmişdir ki, bu da 1996-cı ilin müvafiq dövründəki göstəricidən 26 dəfə çoxdur. Bu dövr ərzində hər bir nəfərə düşən gəlirlər 21 dəfə artmışdır.

## 17 il öncəyə nisbətdə ixrac potensialımız 97 dəfə güclənmişdir

Uzun illər ərzində keçmiş ittifaq respublikaları və ölkəmizin digər bölgələri ilə planlı iqtisadiyyat çərçivəsində formalaşmış iqtisadi və ticarət əlaqələrinin kəskin məhdudlaşdırılması problemi özünü muxtar respublikanın ticarət balansında yaranmış böyük kəsirdə daha aydın göstərirdi. Blokada şəraitinin fəsadlarından biri də o idi ki, həmin dövrdə ixrac sıfır səviyyəsinə yaxınlaşır, idxaldan asılılıq isə daha da kəskinləşirdi.

Ötən dövr ərzində bu mənfi tendensiyanın aradan qaldırılması üçün yerli istehsal potensialının davamlı olaraq gücləndirilməsi strategiyası, idxaləvəzləyici və ixracyönümlü məhsul istehsalının ciddi şəkildə dəstəklənməsi iqtisadi siyasətin əsas istiqaməti kimi saxlanılmış və bu

sahədə mühüm nailiyyətlər əldə olunmuşdur. Yerli istehsal potensialımızın güclü inkişafına uyğun olaraq artıq muxtar respublikaya ərzaq idxalı əsasən məhdudlaşmışdır. İdxalın tərkibində əsas yeri sənayeləşmə proseslərinin intensivliyinə uyğun olan müasir texnologiyalar tutmaqdadır.

Ümumi iqtisadi aktivliyi gücləndirən amillərdən biri yüksək keyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına sərbəst çıxarılmasından, satış problemlərinin səmərəli həllindən, ixrac potensialının daha da gücləndirilməsindən ibarətdir. Son 17 ilə yaxın dövr ərzində muxtar respublikada sahibkarlıq fəaliyyəti və ticarət üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq xarici ticarət əlaqələrinin coğrafiyası daha da genişlənmiş və ilk dəfə olaraq 2009-cu ildə xarici ticarətdə müsbət saldo yaranmışdır. 2012-ci ilin yanvar-may ayları ərzində xarici ticarət dövriyyəsinin 97 milyon 597 min ABŞ dollarını ixrac, 28 milyon 822 min ABŞ dollarını isə idxal təşkil etməklə xarici ticarət dövriyyəsi 126 milyon 419 min ABŞ dollarını ötmüşdür. 1996-cı ilin yanvar-may ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi 13 dəfə, o cümlədən ixracın həcmi 97 dəfə artmışdır.

## Ötən il icmal büdcəmizin həcmi 501 milyon manata çatmışdır

Böhranlı illər ərzində muxtar respublikada iqtisadi potensial üzrə müşahidə olunan durğunluq öz növbəsində büdcə daxilolmalarının natamam icrasına, xərc istiqamətlərinin məhdudlaşdırılmasına, intensiv qaydada sekvestr tətbiqinə və investisiya tutumlu layihələrinin ixtisarına səbəb olurdu. Həmin dövrlərdə hətta müdafiə olunan xərc maddələri üzrə gərginlik ucbatından əməkhaqlarının, pensiya və müavinətlərin ödənişinin aylarla yubadılması xroniki hal almışdı.

Ötən müddət ərzində bu sahədə islahatların səmərəli icrası, ilk növbədə iqtisadi potensialın hərəkətə gətirilməsi və xarici ticarət əlaqələrinin genişləndirilməsi, sahibkarlığın inkişafı yolu ilə vergi ödəyicilərinin say tərkibinin davamlı artımı, müasir tipli müəssisələr şəbəkəsinin formalaşdırılması büdcə-maliyyə balansının tarazlığını və daxilolmaların ciddi artımını təmin etməyə imkan verdi.

2012-ci ilin yanvar-may aylarında Naxçıvan Muxtar Respublikasının icmal büdcəsinin həcmi 223 milyon manat olmuşdur ki, bu da 1996-cı ilin müvafiq dövrü ilə müqayisədə 44,4 dəfə çoxdur.

**Naxçıvan Muxtar Respublikasının icmal büdcəsi, min manat**




## Sosial sektorda səmərəli islahatlar davam etdirilir

Ağır blokada şəraitinin mövcud olduğu ilk illərdə maliyyə resurslarının çatışmazlığı səbəbindən sosial islahatların icrası xeyli məhdudlaşmış, elm, təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində qarşıda duran vəzifələrin yerinə yetirilməsi çətinləşmiş və büdcə vəsaitlərinin tərkibində bu istiqamət üzrə nəzərdə tutulan xərclərin kəskin

azalması səbəbindən sosial layihələrin böyük bir qisminin icrası dayandırılmışdı.

Səmərəli iqtisadi siyasətin nəticəsi olaraq artıq muxtar respublikada formalaşdırılmış dayanıqlı maliyyə sistemi sosial yönümlü layihələrin vaxtında və keyfiyyətlə icrasına geniş imkanlar açmış, bu sahədə mühüm nailiyyətlər qazanılmışdır. Ötən dövr ərzində formalaşdırılmış güclü iqtisadi potensial milli gəlirin təkrar bölgüsü üzrə səmərəli sosial islahatların həyata keçirilməsinə təkan vermiş, xeyli sayda yeni elm, təhsil, səhiyyə, mədəniyyət, idman obyektləri və digər sosial infrastruktur yaradılmış, dövlətin sosial qayğısı əhəmiyyətli dərəcədə gücləndirilmişdir.

1996-cı ildən muxtar respublikada elm və ali təhsil üzrə 12 obyektin, 37606 şagird yerlik 115 ümumtəhsil məktəbinin, 9 məktəbəqədər müəssisənin, 12 uşaq musiqi məktəbinin və 4 digər təhsil müəssisəsinin tikintisi, elm və ali təhsil üzrə 7 obyektin, 3600 şagird yerlik 62 ümumtəhsil məktəbinin, 5 məktəbəqədər müəssisənin, 10 uşaq musiqi məktəbinin və 10 digər təhsil müəssisəsinin yenidən qurulması və ya əsaslı təmiri başa çatdırılmışdır.

Ümumtəhsil məktəblərində 1 iyun 2012-ci il tarixə istifadə olunan 2996 dəst kompyuterin 2465-i və ya 82,3 faizi internetə qoşulmuş və təhsilin daha da keyfiyyətli aparılması məqsədilə 405 elektron lövhə quraşdırılmışdır.

Tarixi mədəni irsin qorunması və təbliği, mədəni potensialın daha da inkişaf etdirilməsi son 17 il ərzində diqqət mərkəzində saxlanılmış, mədəniyyət obyektlərinin inşası, yenidən qurulması və bərpası davamlı xarakter almışdır. Ötən dövr ərzində Heydər Əliyev Sarayı, Heydər Əliyev Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, Şahtaxtinskilər Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, C.Məmmədqulzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı,

Ədəbiyyat Muzeyi, "Nuh Peyğəmbər"in məzarüstü türbəsi, Babək, Ordubad, Kəngərli, Şahbuz, Sədərək rayonlarında tarix-diyarşünaslıq muzeyləri, muxtar respublikanın şəhər və rayonlarında şəhidlər abidə kompleksləri, yeni parklar, ümumilikdə 157 mədəniyyət obyektinin tikintisi, 140 mədəniyyət obyektinin isə yenidən qurulması və əsaslı təmiri başa çatdırılmışdır. Bu dövrdə 35 tarixi abidə bərpa olunmuşdur.

Turizmi iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirmək, sosial və ekoloji tələblərə cavab verəcək səmərəli və rəqabətə davamlı müasir turizm kompleksləri yaratmaq istiqamətində aparılan məqsədyönlü tədbirlər öz müsbət nəticələrini göstərməkdədir. Cari ilin yanvar-may ayları ərzində xarici ölkələrdən və respublikamızın digər bölgələrindən ümumilikdə 129 min 800 nəfər turist gəlmişdir ki, bu da 1996-cı ilin yanvar-may ayları ilə müqayisədə 7 dəfə çoxdur.

İnsanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi məqsədilə ötən dövr ərzində səhiyyə sahəsində mühüm işlər görülmüşdür.

Bu dövr ərzində Duzdağ Fizioterapiya Mərkəzi, Doğum Mərkəzi, Diaqnostika-Müalicə Mərkəzi, Onkoloji Mərkəz, Əlillərin Bərpa Mərkəzi, Uşaq Bərpa Mərkəzi, Şərur, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayon mərkəzi xəstəxanaları, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası və ümumilikdə 140 səhiyyə obyektinin tikintisi, 47 səhiyyə obyektinin isə yenidən qurulması və ya əsaslı təmiri başa çatdırılmışdır.

Ötən 17 ilə yaxın dövr ərzində muxtar respublikada sosial müdafiəyə ehtiyacı olan əhali qrupuna yönəldilmiş xüsusi dövlət qayğısı prioritet istiqamət kimi saxlanılmış, Azərbaycan Vətən Müharibəsi, 1941-1945-ci illər müharibəsi əlillərinə və Çernobıl Atom Elektrik Stansiyasındakı

qəzanın ləğvi zamanı əlil olanlara 289 ədəd avtomobil verilmiş, 178 əlil və şəhid ailəsi mənzil və fərdi yaşayış evləri ilə təmin olunmuşdur. Bu dövr ərzində ehtiyacı olan 3451 əlilə müxtəlif texniki reabilitasiya vasitələri verilmiş, protez-ortopedik məmulatlara ehtiyacı olan 1850 nəfərə xidmət göstərilmiş, respublikanın müxtəlif sanatoriyalarında müalicə olunmaları üçün 1778 nəfər sanatoriya və pansionatlara göndərişlərlə təmin olunmuşdur.

Aztəminatlı ailələrin maddi-rifah halının yaxşılaşdırılması məqsədilə 2006-cı ildən ötən dövr ərzində aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 16 milyon 837 min manatdan çox ünvanlı dövlət sosial yardımı ödənilmişdir.

Muxtar respublikada əhalinin sağlam həyat tərzinin, xüsusən böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsi məqsədilə bədən tərbiyəsi və idman sahəsi daim diqqət mərkəzində saxlanılmış və hazırda müvafiq tədbirlər həyata keçirilməkdədir. Son 17 ilə yaxın dövr ərzində Naxçıvan şəhərində İlham Əliyev adına Naxçıvan Olimpiya İdman Kompleksi, Şahmat Mərkəzi, Şərur şəhərində Olimpiya İdman Kompleksi, Şərur, Ordubad, Culfa, Şahbuz, Sədərək rayonlarında şahmat məktəbləri, muxtar respublikanın şəhər və rayonlarında idman meydançaları və digər idman obyektləri istifadəyə verilmişdir. Ümumilikdə ötən dövr ərzində 20 idman obyekti tikilmiş, 15 idman obyektinin isə yenidən qurulması və ya əsaslı təmiri başa çatdırılmışdır.

## Son 17 ildə əhalinin sayı 84 min nəfər artmışdır

Muxtar respublikanın düşdüyü ağır blokada şəraitinin başlandığı ilk illər ərzində iqtisadi potensialın durğunluğu ilə yanaşı demoqrafik vəziyyətin gərginləşməsi prosesi də özünü göstərməkdə idi. Həmin illərdə sakinlərimizin həyat səviyyəsinin, yaşayış standartlarının kəskin pisləşməsi, bir sözlə günbəgün çətinləşən həyat tərzi və gərgin psixoloji vəziyyət nikahların bağlanmasını, yeni ailələrin qurulmasını və körpə doğumunun səviyyəsini xeyli zəiflətmişdi.

Müasir dünyada demoqrafik gərginliyin aradan qaldırılmasının ən doğru yolu ümumi inkişafa nail olmaqla insanların həyat səviyyəsinin yaxşılaşdırılması hesab olunur. Ötən dövr ərzində muxtar respublikamızda qənaətbəxş demoqrafik vəziyyətin bərqərar olması naminə bu istiqamətdə siyasət əhali rifahının yaxşılaşdırılmasından, yaşayış standartlarının təkmilləşdirilməsindən, ailələrin iqtisadi müstəqilliyinin təmin edilməsindən ibarət olmuş və bu məqsədlə ümumi iqtisadi tərəqqinin dinamikliyi davamlı qaydada təşviq edilmişdir.

1 iyun 2012-ci il tarixə muxtar respublikada əhalinin sayı 1 yanvar 1996-cı il tarixə olan göstəriciyə nisbətən 84 min nəfər artaraq 422 min nəfərə çatmışdır.

Son 17 ilə yaxın dövr ərzində muxtar respublikada 116 min nəfər uşaq doğulmuşdur. 2010-cu ildə muxtar respublika tarixində ilk dəfə olaraq il ərzində doğulan körpələrin sayı 10 min nəfəri ötərək 10 min 116 nəfər, 2011-ci ildə isə bu göstərici 10 min 404 nəfər olmuşdur.

Əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması öz növbəsində 1 yaşa qədər ölən uşaqların sayı üzrə göstəricini kəskin şəkildə aşağı salmışdır. Belə ki, hər 1000 nəfər doğulana hesabı ilə 1 yaşa qədər ölən uşaqların sayı 1996-cı

ildə 22,1 nəfər olmuşdursa, 2011-ci ildə bu göstərici azalaraq 1 nəfər təşkil etmişdir.

**1 yaşa qədər uşaq ölümü**
**(hər 1000 nəfər doğulana hesabı ilə)**




Əhalinin yaşayış səviyyəsinin yaxşılaşması, səhiyyə infrastrukturunun yenilənməsi, tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi ana ölümü hallarının son illər ərzində baş verməməsinə zəmin yaratmışdır.

## Cinayət hadisələrinin sayı sıfır səviyyəsinə yaxınlaşır

Ötən dövr ərzində muxtar respublikada iqtisadi və sosial sahələrdə əldə edilmiş uğurlar, o cümlədən yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq səviyyəsinin davamlı yüksəlişi, əhalinin asudə vaxtının daha da səmərəli keçirməsi üçün yaradılmış şərait və digər bu kimi mühüm amillər cinayət hadisələrinin kəskin azalmasına səbəb olmuşdur.

2012-ci ilin ilk beş ayı ərzində muxtar respublikanın ərazisində 8 cinayət hadisəsi qeydə alınmışdır ki, bu da 1996-cı ilin yanvar-may aylarında qeydə alınmış 215 cinayət hadisəsi ilə müqayisədə 27 dəfə azalma deməkdir.

## Səmərəli idarəetmə mexanizmi formalaşdırılmışdır

İnstitusional islahatların mühüm istiqamətlərindən biri idarəetmənin çevikliyini və səmərəliliyini təmin etmək məqsədilə yeni dövlət hakimiyyəti və xidmət orqanlarının təsis edilməsindən ibarətdir. Bu istiqamətdə islahatlara uyğun olaraq ötən dövr ərzində Əliabad və Qıvraq kəndlərinə qəsəbə, Şahbuz qəsəbəsinə şəhər statusu verilmiş, Heydərabad qəsəbəsi və bir yeni inzibati rayon – Kəngərli rayonu, 96 inzibati ərazi dairəsi və 300-dən artıq dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanı, dövlət mülkiyyətində olan digər idarə, müəssisə və təşkilat yaradılmışdır ki, bu da idarəetmənin əhatəli və səmərəli təşkili üçün münbit şərait yaratmaqdadır.

## Ölkə Prezidentinin 10 ardıcıl səfəri ərəfəsində 70-ə yaxın obyekt istifadəyə verilib

Zəngin mədəniyyətə, qədim tarixə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan doğma Naxçıvanımız ötən dövrdə çətin, mürəkkəb eyni zamanda parlaq inkişaf yolu keçmişdir. Blokada şəraitində olmasına baxmayaraq Naxçıvan Muxtar Respublikası öz qədimliyini və tarixiliyini qorumaqla bu gün də sürətli inkişafı və dinamik tərəqqisi ilə seçilməkdədir. Aparılan genişmiqyaslı quruculuq işləri və təmin olunmuş yüksək iqtisadi aktivlik mütəmadi olaraq ölkə başçısı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmiş, çətin şəraitdə əldə olunmuş bu inkişafın qürurverici olduğu vurğulanmışdır. Bu ilin 30 may tarixində muxtar respublikamıza növbəti dəfə səfərə gəlmiş cənab Prezident günbəgün gözəlləşən diyarımız haqda belə qeyd etdi: **”Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bu işlər onu**

**göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar”**.

Bu möhtəşəm inkişafı təcəssüm etdirən təkcə bir faktı qeyd etmək kifayətdir ki, ölkə başçısı cənab İlham Əliyev muxtar respublikaya 10 ardıcıl səfəri ərəfəsində 70-ə yaxın obyektin açılışını etmiş, öz xeyr-duasını vermişdir. O cümlədən cənab Prezidentin son səfəri ərəfəsində cəmi bir gün ərzində 10 obyektin - Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının və Fövqəladə Hallar Nazirliyinin inzibati binasının, Naxçıvan Şəhər Gömrük İdarəsi üçün yeni kompleksin, Sement Zavodunun, Kəngərli rayonunun Qıvraq qəsəbəsində Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkının, Mədəniyyət evinin, həmin qəsəbədəki “N” saylı hərbi hissədə qərargah binasının, Naxçıvan-Culfa magistral avtomobil yolunun, Culfa şəhərində Uşaq Musiqi Məktəbinin, Sərhəd Komendantlığının və Sərhəd Zastavasının açılış mərasimlərinin keçirilməsi sürətli tərəqqinin əyani göstəricisidir.

## Uğurlarımız daha da parlaq gələcəyimiz üçün ən yaxşı kapitaldır

İctimai həyatımızın son 17 ilə yaxın bir dövrü inkişaf və tərəqqi mərhələsi kimi doğma Naxçıvanımızın iqtisadi və siyasi tarixinin parlaq səhifəsinə çevrildi. Gərgin əmək və müdrik ideologiyaya sadiqliyin vəhdətindən doğan bu uğurlar, nailiyyətlər xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunun alternativsizliyini bir daha sübut edir.

Dahi öndərin **“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”** sözləri bu gün də quruculuq

işlərinin əsas qayəsi olmaqla muxtar respublikamızı yeni-yeni uğurlara doğru aparır.

Aparılan təhlillər və sosial-iqtisadi proseslərin yekunu göstərir ki, muxtar respublikamız sürətli inkişaf tempini qoruyub saxlamaq üçün bütün potensial imkanlarını səfərbər edir, daha uğurlu nəticələrə və yeni-yeni nailiyyətlərə doğru inamla irəliləyir. Bütün bu uğurların əsasında isə Heydər Əliyev yoluna sadiqlik, bu yolda göstərilən böyük əzmkarlıq, möhkəm qətiyyət, misilsiz dövlət və Vətən sevgisi dayanmaqdadır.